**Fatma İsrafilova**

# *Sənin sorağınla*

**Bakı - 2023**

***Redaktor:*** ***Nəcibə İlkin***
*Yazıçı, şair-publisist.*
*"Azad Qələm" qəzet və jurnalın*
*baş redaktoru,*
*Prezident mükafatçısı*

***Fatma İsrafilova,***
***"Sənin sorağınla"***
***Bakı, «İMZA» nəşrlər evi, 2023, 120 səh.***

**İSBN 978-9952-37-440-1**

**© Fatma İsrafilova - 2023**

## Haqdan asılan misralar
## Ön söz

Fatma xanım çoxdan yazıb yaradan, şeirimizin klassik ənənələrini qoruyub saxlayan şairlərdəndir. Dövrü mətbuatda və "Aşıq Pəri" məclisində fəal çıxış edən şair, ruhunu sözə kökləməklə, sözün munis dostu, sirdaşı olmağı bacarmışdır. Müəllimlik fəaliyyəti ilə bərabər şeir dünyasını qoşa yaşayan sənətkar daxili dünyasının ilahi təcəssümünü misra-misra nəzmə çəkməklə qalaq-qalaq söz inciləri yaratmışdır. Vətəninə, elinə, obasına, xalqına bağlı olan Fatma xanım vətən dərdini çiyinlərində daşımaqla, bu dərdi söz-söz, kəlmə-kəlmə nəzmə çəkmişdir.

***Tükənməyib xalqımın dəyanəti, qeyrəti,***
***Dağ üstünə dağ qoyar dağlar qədər qüdrəti,***
***Vulkan kimi püskürüb, silkələnib millətim,***
***Şəhid kimi ölərik, qazi kimi yaşarıq.***
***"Ya Qarabağ, ya ölüm, özgə çarə yox artıq"!***

-deyən şair Qarabağ ağrılarını şəhid oğullarımızın, qazilərimizin mərdliyində,

igidlyində yaşadıb. Və böyük inamla vətən torpaqlarının azadlığına tam əminliklə yanaşıb. Onun şeirlərinin əksəriyyəti Qarabağ torpaqlarmızın işğalı dövründə qələmə alınıb. Və bu acıları ta ki, qələbə anına qədər çiyinlərində daşıyıb. Şeirlərində vətən harayını, vətən səsini mənəvi dünyasının, gələcəyə inamının üzərində kökləyib. Neçə əsrlərdi əzilən, səbri tükənən, daşan xalqın ruhunu şeir-şeir ağlamaqla onları əzmkarlığa, mübariz olmağa çağrıb. Min bir yerə bölünən, İrəvan, Təbriz, Dərbənd, Borçalı yaralarımıza sözüylə həmdəm olmağa çalışıb. "Duyan könlüm susma Allah eşqinə, Dərdimizi bir-birinə qatdılar"."İnsan oğlu dəmirdimi, daşdımı",-deyən şairin göz yaşlarını aydın görmək olur hər misrada. Təbrizə getmək, doğma vətən torpağının isti nəfəsini duymaq istəyən Fatma xanım qəlbinin ağrılarını dilə gətirir:

***Vətən vicdan, vətən anddı, amandı,***
***Qürbət eldə can tapşırmaq yamandı,***
***Sürünərəm o tayacan diz-dizə,***
***Tut əlimdən apar məni Təbrizə.***

Vətəni sevməyən, onun ağrı-acılarını, qanlı tarixinin keçmişini bilməyən, tanımayan qələm sahibinin qəlbini boş səhra bilirəm. Bu mənada qəlbi dərdlə dolu, sözlə beşikli olan şairin vətən göynərtisi, vətən sevgisi hər kəlməsində aydın görürünür. Bir ziyalı kimi bu ağrıları yaşamağa, bu sevgini yaşatmağa özündə dözüm tapmaq, gələcəyə çatdırmaq missiyasını məharətlə, iradəsinin gücüylə həyata keçirməyə can atır.  Cəsarəti, aliliyi, mənəvi dünyası bu yolda ona yardımçı olur. Çünki Fatma xanım bir şair, bir pedaqoq kimi insanlıq elminin daşıyıcıısıdır. Özü demişkən: "Mən insan ünvanlı sadə bir kəsəm, Yaratmaq həvəsli sədayam, səsəm". Məhz bu mənada onun kimliyi şeirlərində hər an duyulur, sözlərində parıldayır.

Müəllim adına böyük dəyər verən, onun qədrini bilən və çəkisini qorumağı  hər kəsə aydınladan Fatma xanım bütün doğmalarından öndə müəllim adının dayanmasını xüsusi vurğulayır: " Atadan, anadan, bacıdan əvvəl, Müəllim sözünə inam gətirdik", fikri Ulu öndərimiz Heydər Əliyevin "Mən müəllimdən böyük ad tanımıram" kəməsi-

ni mənə xatırlatdı. Yaxud başqa bənddə bu adın adiləşməsinə qarşı çıxmaqla müəllim adının böyüklüyünə ehtiram gətirir:

***A dostlar! Qəlbimdə gileyim də var,***
***Ünvanlar səhv düşüb, yer dəyişməsin.***
***Hər gedib, gələnə müəllim deyib,***
***Müəllim kəlməsi adiləşməsin.***

Fatma İsrafılovanın şeirlərində haqsızlığa qarşı üsyan var. Onun içindəki bu üsyan gah vulkan kimi püskürür, gah da dəniz kimi çılğınlaşır. Bəzən də söz-söz ərşə qalxır. Xalqın malını talıyanlara, haqqını tapdalayanlara, ancaq özünü düşünənlərə qarşı haqq səsini ucaldan şair bu yolda hər kəsi əyilməzliyə səsləyir. Bu əyilməzlik ancaq vətən qarşısında, şəhid və qazi kimi vətən oğullarının qarşısında əyilə bilər, deyir.

***Nəfsi böyük, iti tamah gödənlərə,***
***Bir qarnını, bir özünü güdənlərə,***
***Təmtərağa dizin-dizin gedənlərə,***
***Əyilmə sən, əyilmə sən!***

*Dövrümüzə səadət bəxş edənlərə,*
*Vətən üçün od-alova gedənlərə,*
*Şəhid olmuş, daşa dönmüş bədənlərə,*
*Milyon dəfə əyil bala!*

Böyük və olduqca müdrikcəsinə deyilmiş bu ibrətamiz misralar əsl müəllim, şair qəlbinin harayıdır. Yaltaqlığa, yamanlığa, harınlığa qarşı amansız olmaqla insanları doğru yola çağırır. Bu yol insanlıq yoludur, bu yol haqq yoludur. Allahına, xalqına, vətəninə bağlı olan şair insanlığın ali mərtəbəsində dayanmaqla hər kəsi bu yolda görmək istəyir. Şeirində dediyi kimi....

*Məhəbbət, sədaqət, dəyanət ki, var,*
*Qəlbimin bəzəyi, arzu, kamımdır.*
*Həyatda bir vəfa, bir də etibar,*
*Mənim insanlığa ehtiramımdır.*

Və bu yolu inamla, cəsarətlə gedən dəyərli söz aşiqimizə, hörmətli şairmizə yolunuz uğurlu, işıqlı olsun deyirik.

**Hörmətlə: Nəcibə İlkin**

## Ürəyim

Qoşa yanaq vətənimin dərdinə,
Soyuqluğun dərmanı nə, dərdi nə?
Elə döyün qarışmasın dərd ünə,
Şimşək kimi sinəmdə çax, ürəyim.
Sellər kimi kükrəyib ax, ürəyim.

Günəş doğdu, qurşaq tutdu, göy yeddi,
Söz eşitdim qulağımı göynətdi,
Ümidlərim diləyimi göyərtdi,
Sən həyata inamla, bax, ürəyim.
Qartal olub zirvəyə qalx, ürəyim.

Kimə gərək sözü, işi boyaqlar,
Bu yazıqlar, bu yaxınlar, bu yadlar,
Meynələr də budandıqca boy atar,
Yazı, pozu varaq-varaq, ürəyim,
Göyər, pöhlən, budaq-budaq ürəyim.

Ha yüyürdüm, cığır-çınqıl daşlı yol,
Tufan qalxdı bəndi yıxdı daşdı yol,
Neçə arzu, neçə murad aşdı yol,
Dözümlüyü eylə bayraq ürəyim,
Köçsün səndən o qəm, bu dağ ürəyim.

Dəli Kürüm ya lal axır, ya daşır,
Getmədikcə doğmalar da yadlaşır,
Sən ömrümün ay vəfalı yoldaşı,
Alovlanaq, gəl alışaq ürəyim,
Haqq yolunda qoşalaşaq ürəyim.

Günüm ötdü, tellərimə düşdü dən,
Qaynar çeşmə dil göynədən, diş didən,
Ağ kağızı qələmlə didişdirən,
İlham, təbin olsun ocaq ürəyim,
Səndən qalan bu olacaq ürəyim.

## Umma

Namərddən mərhəmət, nankordan izzət,
Bədəsil övladdan ar-qeyrət umma.
Xəsisdən səxavət, xəbisdən rəğbət,
Hər dostdan-tanışdan bir hörmət umma.

Peşmanlıq çəkəcək yolunu azan,
Yaxşını çevirib yaman tək yozan,
Alın təri töküb haqqını qazan,
Atadan-anadan mal-dövlət umma.

İlham bulağımdı həyat əzəldən,
Qəlbim ayrılarmı şeir-qəzəldən,
Abırı-həyası kasad gözəldən,
Nə həya, nə ismət, nəcabət umma.

Ömür varaqlanır, yaş ötür yaşdan,
Gərək söz anlayaq göz ilə qaşdan,
Rəhmsiz, insafsız ürəyi daşdan,
Sədaqət, mürüvvət, məhəbbət umma.

Biməslək, biqeyrət, arsız insandan,
Dostu ayaqlayıb yada yanandan,
Bir qarın çörəyə haqqı danandan,
Mətanət, cəsarət, dəyanət umma.

Yurdun həsrətiylə yanar Fatimə,
Dərdini dərdlidən danar Fatimə,
Doğma vətənindən kənar Fatimə,
Heç yerdə şərafət, səadət umma.

## Əyilmə, əyil

Nəfsi böyük, iti tamah gödənlərə,
Bir qarnını, bir özünü güdənlərə,
Təmtərağa dizin-dizin gedənlərə,
Əyilmə sən, əyilmə sən!

Şöhrət üçün məsləkini satanlara,
El malından xısın-xısın dartanlara,
Gizlin yeyib, axşamacan yatanlara,
Əyilmə sən, əyilmə sən!

Nadanların ucuzca söz bazarına,
Nankorların quduzca öz bazarına,
Naşıların söz yığın, söz bazarına,
Əyilmə sən, əyilmə sən!

Dövrümüzə səadət bəxş edənlərə,
Vətən üçün od-alova gedənlərə,
Şəhid olmuş, daşa dönmüş bədənlərə,
Milyon dəfə əyil bala!

Şəhid olmuş əsgərlərin məzarına,
Sərt qeyrətli sərkərlərin məzarına,
Saya gəlməz mərd ərlərin məzarına,
Milyon dəfə əyil bala!

Ataların, anaların qarşısında,
Ovucları qabarların qarşısında,
Əl-ayağı cadarların qarşısında,
Məhəbbətlə əyil, bala!

Ümid dolu xos arzuya, xoş diləyə,
Alın tərli, büllur kimi saf ürəyə,
Yol üstündə buğda boyda bir çörəyə,
Məhəbbətlə əyil bala!

Həyat dolu ömür adılı bağça-bağa,
Vətən adlı, başı qarlı uca dağa,
İnsanlara həyat verən bu torpağa,
Min yol əyil, əyil bala!

## Ömür yollarında

Bərkidin qartal tək qanadlarımı,
Ömür yollarında yüksəliş verin.
Alın dövlətimi, alın varımı,
Mənə zərrə boyda nəvaziş verin.

Mən insan ünvanlı sadə bir kəsəm,
Yaratmaq həvəsli sədayam, səsəm,
Dağı endirərəm düzə istəsəm,
Təki əməllərdə qalan iş verin.

Şirin danışıqdan ürək yorulmaz,
Kökünə su daman ağac saralmaz,
İnsandan hər şeyçün haqq ummaq olmaz,
Qayğını, şəfqəti bəxşeyiş verin.

Göylərə gəlirsə qara buludlar,
Nə canlı yaşayar, nə həyat olar,
Torpağın Günəşə ehtiyacı var,
Dünyanı güldürən Gün-Günəş verin.

## Neyləsin

Göylərdə görünsə qara buludlar,
Dağlara tökülən duman neyləsin!
Qapqara gecənin ağ gündüzü var,
Sinəsi sökülən ümman neyləsin?!

Borana, tufana dara düşəndə,
Taleyin hökmünü görmüşəm mən də,
Tellər vəcdə gəlib könül didəndə,
Həsrət çeşməsində kaman neyləsin?!

Büllur yağışmıdır gözündən yağan,
Zərrin günəşmidir üzündə doğan,
Bir damla inamı öldürən, boğan,
Şübhələr selinə güman neyləsin?!

Nadan sözü nə anladı, nə qandı,
Dərd çəkməsə səbir vermək asandı,
Zamanı da dəyişdirən insandı,
Zaman o zamandı, Zaman neyləsin.

## Sənə işi düşəndə

Dilindən bal tökülər,
Üzündən nur sökülər,
O, ikiqat bükülər,
Sənə işi düşəndə.

Yığılar qaş-qabağı,
Gülümsəməz dodağı,
Danışığı bayağı,
Sənə işi düşəndə.

İki əlli yapışar,
Yerli, yersiz qımışar,
Yaltaq-yaltaq danışar,
Sənə işi düşəndə.

Nəzər salar gözucu,
Salam verər dilucu,
Gileydi işi-gücü,
Sənə işi düşəndə.

Yalan-doğru sovurar,
Hörmətindən dəm vurar,
Ağzıyla "ceyran" ovlar,
Sənə işi düşəndə.

Bircə arzu bu dəmdə,
Baş qaldırır sinəmdə,
Kaş olaydı insanlar,
Bir sifət, bir görkəmdə,
Sənə işi düşəndə.

## Bərbadlaşmasın

Deyirsən haçadı gəzdiyim yollar,
Ürəyinlə dilin haçalaşmasın.
Arzular quş kimi dağ dolaşsa da,
Tale düyünlənib kaş dolaşmasın.

Əsdi həyat yeli belədən belə,
Gah sevinc gətirdi gah da ki, nalə,
Uşaqda böyüklük xisləti:- Əla,
Böyüklük kiçilib uşaqlaşmasın.

Gözümü tutmasın, nə var, nə dövlət,
Böyük hədiyyəmdir kiçicik diqqət,
Qadında kiçiklik, dəyanət, qeyrət!
Amandı kişilər arvadlaşmasın.

Min bir hikməti var qara yerin də,
Qiymətli xəznəni gizlər dərində,
Vəzifə, dəbdəbə, şöhrət görəndə,
Doğmalar dəyişib başqalaşmasın.

Ən alçaq insanın ünvanı, adı,
Çörəyi dizində olanlardadı.
Yığıb dərgahına casus-cəlladı,
Doğma Qarabağım bərbadlaşmasın!!!

## Beşlik

Qəlbimizdə cövlan edir min dilək,
Arzular bol, ömür gödək, neyləyək?
Qəlbimizi od-ocağa döndərək,
Elə yanaq, zərrəmiz də kül olsun,
Hər tərəfə ovuc-ovuc sovrulsun.

Bir günüm də ötüşməsin mənasız,
Söhbətimdən məna anla, məna sız.
Elə danış, deməsinlər mənasız,
Söz yerinə dürr səpilsin sətrimə,
Təbsiz günüm hörülməsin ömrümə.

Çətir-çətir söyüdlərim yoldadır,
Ətir-ətir qızıl gülüm koldadır.
Sətir-sətir misraların bal dadır,
Məlhəm olsun yamanına, yaxşına.
Fatimə də qoy dolansın başına.

## Eşq olsun əbədi yaşayanlara

Sən mənim ömrümdə parlayan işıq,
Mən sənin ömründən borc alan insan.
Sən mənim ömrümdə bir nur, yaraşıq,
Mən səndən güc alıb ucalan insan.

Təpədən dırnağa nümunə özü,
Gəzişi, gülüşü, sevinci, gəmi.
Yaddaşa yazılıb hər bir kəlməsi,
Yazı sərdabəyə yazılan kimi.

Ötdükcə fəsillər, ötdükcə illər,
Biz nələr qazandıq, nələr itirdik.
Atadan, anadan, bacıdan əvvəl,
Müəllim sözünə inam gətirdik.

Biz elə bilirdik, elə bilirdik,
Müəllim dünyanın ülvi kəsidir.
Yeməyən, içməyən, səhv işlətməyən,
Həyatın müqəddəs mələkəsidir.

Bu necə sədaqət, bu necə ülfət,
Hər an yetirmənin sorağındasan.
Bu necə şərafət, bu necə şöhrət,
Bütün cəmiyyətin dodağındasan.

Ölçüyə gəlməyir ölçü-dəyəri,
Bu necə nüfuzdu, bu necə sirdi.
Əsl müəllimin sənət əsəri,
Bütün əsərlərin Şah əsəridi.

A dostlar!  Qəlbimdə gileyim də var,
Ünvanlar səhv düşüb, yer dəyişməsin.
Hər gedib, gələnə müəllim deyib,
Müəllim kəlməsi adiləşməsin.

Tanrı qüvvə versin, tanrı güc versin,
Bu yükü şərəflə daşıyanlara.
Müəllim söyləyirəm, müəllim deyirəm,
O adla əbədi yaşayanlara.

**Ulu tanrım, mənə bir az səbr ver**

Haqqın səsi qalaylanıb, daşlanıb,
Bu yolların səmti hardan başlanıb,
Zalım bizim qanımıza qurşanıb,
Ulu tanrım, mənə bir az səbr ver.

Bu fəryadı göylər necə götürdü,
Bu fərmanlar qan selləri gətirdi,
Bu göz yaşı qərənfillər bitirdi,
Ulu tanrım, mənə bir az səbr ver.

Nə qovğadır ürəyimi dağlayan,
Qollarımı çalın-çarpaz bağlayan,
Bu xalqımdır için-için ağlayan,
Ulu tanrım, mənə bir az səbr ver.

## Sözündə olar

Hər şeyi həyatda qazanmaq asan,
Mərifət-İnsanın özündə olar.
Cahillik cavanın coşqun çağında,
Aqillik qocanın sözündə olar.

Möhkəmlik- Qartalın caynaqlarında,
Ötgünlük-Bəbirin ayaqlarında.
Xınalıq- Kəkliyin dırnaqlarında,
Gözəllik- Ceyranın gözündə olar.

Yorğunluq yolların yoxuşlarında,
Durğunluq gözlərin yağışlarında,
Soyuqluq insanın baxışlarında,
İstilik ürəyin közündə olar.

Heyrət dağ döşünün ətəklərində,
Zəhmət bal arının pətəklərində,
Qüdrət xaqanların bəbəklərində,
Qüvvət igidlərin dizində olar.

Bədəsil xasiyyət üz qarasıdır,
Sağalmaz yaralar söz yarasıdır.
Fəlakət qaş ilə göz arasıdır,
Ya suda, ya odda, ya düzdə olar.

## İttihamlar kürsüsündə

*("Azərbaycan! Söyləyəndə ayağa dur ki,*
*Füzulinin ürəyinə toxuna bilər")*

**M. Araz**

Uzaq-uzaq keçmişləri silkələyib oyatdın,
Füzulinin ürəyini niyə vurub qanatdın?
Necə qıydın işlədəsən "Dünya dilləri fövqündə,
Çözələnib, sönüb bu dil".
Dədəm Qorqud oğuzunda hoylanan,
Qoç Koroğlum boylarından boylanan,
Laylaların, ağıların,
Bayatının, nağılların.
Bətnindən doğulan dil,
Sönən deyil, sönən deyil.
Bir də belə səhv eləmə, sən ey insan.
Mənə qalsa yaşamağa layiq deyil
Öz yurdunu, öz yerini, öz dilini,
Millətini, qeyrətini danan insan, danan insan.
Puşkin böyük şair olmuş! Fəqət Səməd asimandır.
Hər misrası sirli aləm, kəhkəşandır,

Mən sevirəm Mosartı da, Şopeni də,
Verdini də,
Üzeyirin bircə "Sənsiz" romansını,
Dəyişmərəm bir kimsənin ilahidən
Bəxş olunmuş vergisinə.
Krılovun təmsilləri rus şerinə vurmuş bəzək,
Fəqət o da çıxa bilməz satiranın zirvəsinə.
Seyyidim tək, Sabirim tək!..
Sən ki belə özgə dilin özəlinə güvənirsən.
İnanmıram öz dilinin rişəsini yanğı ilə,
duyğu ilə öyrənəsən...
Ormanlara səda salan Cəfərimdi,
İblisləri, min sifətli kəsləri,
Qələmiylə vuran, çalan Cavidimdi,
Cəlilimdi...
Dilimizin mayasının qayəsinə sığınıram,
Millətimin haqq səsində,
Ona əyri, xor baxanlar oturmağa layiqlidir,
İttihamlar kürsüsündə, ittihamlar kürsüsündə!..

## Kişilər ağlayanda

Şələ kimi dərd dağı
Kürəyinə dolanar,
Cismi od tutub yanar...
Sükunət sızıltısı
Ərşə qalxar, dayanar...
Kişilər ağlayanda...

Yumaq kimi bükülü,
Köksündə övlad yükü...
Varlığıyla hönkürür,
Kişilər ağlayanda.

Bir əli baş, biri diz,
Çevrəsindən xəbərsiz...
Göynəyər səs-səmirsiz,
Kişilər ağlayanda...

Duyğular saçalanar,
Gümanlar haçalanar...
Ürəklər parçalanar...
Kişilər ağlayanda.

Duman gedər, çən gələr,
Tellərinə dən gələr...
Qəbir ona gen gələr.
Kişilər ağlayanda.

Canda ildırım çaxar,
Heyrət hayandan baxar?
Yer məhvərindən çıxar,
Kişilər ağlayanda.

Ay özündən xəbərsiz,
Atalara bir belə
Olmayın mərhəmətsiz.
Dövrün hansı çağıdı,
Sevgiləri, istəyi,
Göz qırpımda dağıdır...
Şübhə qalmır sözümə,
Deyirəm öz-özümə,
Dünyanın axırıdı
Kişilər ağlayanda.

Bir sitəmi anlamaz,
Deyər "kişi ağlamaz"
Hardan gələn əmirdi,
Kişi daşdı, dəmirdi?
Bir ciyərparasından,
Bir ana çarasından,
Bir torpaq yarasından,
Göynəyər göyüm-göyüm,
Sızlayar zülüm-zülüm,
Bütün sərhəddi qırıb,
Sınsa ürəkdən sınıb,
Kişi kimi ağlayar,
Kişilər ağlayanda
Kişilər ağlayanda!..

## Ağırlıq

Xoşum gəlir ağırlıqdan yaman,
Duruşun ağırlığı,
Yerişin ağırlığı,
Gəlişin ağırlığı,
Gülüşün ağırlığı...
Sözün ağrısı ürəyimi çarpar,
İnlədər, sızladar...
Sözün sambalı, ağırı diləklər çələngimi,
Xumarlanan xəyallar qucağından qarpar.
Həqiqətin istiliyinə, qaynarlığına çırpar.
Məni qızdırar, qızdırar.
Ağırlıqdan xoşlanıram,
Xassiyyətin ağırlığı,
Ülfətin ağırlığı, sədaqətin,
məhəbbətin ağırlığı.
Bu ağırlıqla yükləndikcə
yüngülləşirəm elə bil,
Üzü ağ gəzirəm, üzü ağ.
Bilirəm ki, ağırlığa bələnmiş el qızını,
Ağıllı, ismətli, həyalı çağıracaq.
Ağırlıqdan xoşum gəlir,
Dərdlərin ağırı olmaya.
Dünyamızı hədəf edəcək
        kəməndin ağırı olmaya.
Cənub-şimal arasında

sərhədlərin ağırı olmaya,
Bir qəlbin istisini buza döndərəcək
baxışın ağırı olmaya.
Alqışdan al günəş doğulur,
Qarğışın ağırı olmaya,
Ağırlıqdan xoşlanıram,
O ağırlıqdan onunla dünyanın ağrılı ağırlığını,
Dəf edir, məhv edir, dəfn edir insan, insan...

## Şuşa

Hər yana yayılıb məlalın sənin,
Dillərin söhbəti, sözüdür Şuşa.
Aləmi mat qoyub camalın sənin,
Deyirlər: "Cənnətin özüdür Şuşa".

Göy otlağı, yamacları, yaylağı,
Ruha qida verir İsa bulağı.
Duz-çörəklə qarşılayır qonağı,
"Turşsu"lu, həm "Cıdır düz"lüdür Şuşa.

Gözəl xan qızının sarayı burda,
Vaqifin, Zakirin harayı burda,
Qədim qalaların bir tayı burda,
Cümlə Qarabağın gözüdür Şuşa.

Natəvan tək tarixə iz salaydım,
Nüşabədən dəyanəti alaydım,
Barı bir gün səndə qonaq qalaydım,
Görəydim tərifin düzmüdür Şuşa.

## Toxunma

Qara qorxu, qanqallıqda dolan, gəz,
Bülbül ötən o gülzara toxunma.
Özgələrlə nə qurmusan sövdəni,
Uduzarsan, bu bazara toxunma.

Dar günündə "Dağlıq" oldu köməyin,
İndi daşmı, dəmirdimi ürəyin?!
Haram olsun sənə duzum, çörəyim,
Tutuşasan ahuzara toxunma.

Bilinməyir fitnən nədir, felin nə?
Necə düşdün xəyanətin felinə?
Ədaləti verib xəzan yelinə,
Gözəl keçən gün-güzara toxunma.

Xalqın səbri ya tükənər, ya daşar,
Danışdırsan qayalar da danışar.
Qarabağım alov tutar alışar,
Ulu soya, daş məzara toxunma.

## Hüzuruna gəlmişəm

Dağlar duman, günəş küskün, qaya başın sar alıb,
Dərdimizi sümürməkdən torpağımız saralıb,
Qeyrət adlı qılıncımız qanımıza sarılıb,
Nüşabəyəm, fatehlərlə mən üz-üzə gəlmişəm.
Dua eylə, ya Şey(i)xim hüzuruna gəlmişəm.

Təşnələrçün həyat yeri çeşmə adı, qar adı,
Bax, neçə min Afaqların örpəkləri qaradı.
Tanrı gözəl fitnələrin evdə qaldı, qarıdı,
Taleləri düyünlənmiş ağ-qaralı telmişəm,
Dua eylə, ya Şey(i)xim, hüzuruna gəlmişəm.

Bir gerçəyə dəyişmərəm yalançı min andını,
Pambıq ilə baş girləmək insafmı, imandımı?!
Bəhramların etibarsız vəzirə inandımı,
Süleymanlar qənşərində haqq söyləyən dilmişəm,
Dua eylə, ya Şey(i)xim, hüzuruna gəlmişəm.

Dağlarımda Səncərlərin darğaları çoxalıb,
Xeyirimin gözlərində ağrıları çoxalıb,
Dizi yerdə, əli göydə qayğılarım çoxalıb,
Bu yanğıyla, bu qayğıyla qəm püskürən selmişəm,
Dua eylə ya Şey(i)xim, hüzuruna gəlmişəm.

Qaya söküb gəzənməyən Fərhadların xətrinə,
Bəy xonçası bəzənməyən övladların xətrinə,
Uluların, ulusların, əcdadların xətrinə,
Səni Kəbəm, səni Məkkəm səni Qibləm bilmişəm,
Dua eylə, ya Şey(i)xim hüzuruna gəlmişəm.

## Yaxşıdır

Könülsüz-könülsüz bir gülüzlünün,
Gülməyindən gülməməyi yaxşıdır.
Bir zəhər dillinin, acı sözlünün,
Dinməyindən dinməməyi yaxşıdır.

Yaz səhəri duman dağa çəkilə,
Göydən yerə günəş seli tökülə,
Bir şerin ki, qol-qanadı sökülə,
Deməyindən deməməyin yaxşıdır.

Külək əsər təkan verər ləpəyə,
Nə yaraşır ağ ləpələr ləpəyə?
Fatiməsən dırmaşırsan təpəyə,
Enməyindən enməməyin yaxşıdır.

## Üzdəniraqlara

Dostluq, yoldaşlıqdan dünən dəm vurub,
Bu gün özün onu ayaqlayırsan.
Hər süfrə başında bir aləm qurub,
Ötən günlərini soraqlayırsan,
Səhər özün onu ayaqlayırsan.

Deyirsən unudub səni dostların,
Yalqız qalmağından gileylənirsən.
Vaxtı çatan kimi yeni tostların,
Döşünə döyürsən, hey öyünürsən,
Sonra təkliyindən gileylənirsən...

Bu gün etibarı badəyə satıb,
Mənliyə, vicdana and da içirsən.
Niyyətə, mətləbə, məqsədə çatıb,
Ən xəbis, ən murdar cığır seçirsən,
Mənliyə, vicdana and da içirsən.

İnsanlıq, etimad, etibar hanı?
Necə gəzinirsiz yer üzündə siz?!
Sizdəki kişilik, bəs vüqar hanı?
Qaradır qəlbiniz, əməlləriniz,
Necə gəzinirsiz yer üzündə siz?!

## Şair, nə az yaşadın sən...

Ömrün keçdi yavaş-yavaş,
Vaxt-vədəsiz ağardı saç.
Vurğun idin ürəyinlə,
Azərbaycan ellərinə.
Hər il bahar doğulduqca,
Dinir çiçək, dinir çəmən,
Şair, nə az yaşadın sən?!

Odlu sinən sönən oldu,
İlqarından dönən oldu,
Nəbzin ömrün yarısında,
Şairlərin arasında.
Yerin, yurdun yetim qalıb,
Bir səs qalxır ürəklərdən,
Şair, nə az yaşadın sən?!

Meşələri gəzdikcə mən,
Haray gəldi meşələrdən,
Ovçular var naşı-naşı,
Köksümüzü nişan alır addımbaşı.
Oxuyaydın kaş yenə də,
"İnsaf eylə" şerini sən,
Şair, nə az yaşadın sən?!

## Qəzəl

Sındırılmış ürəyə dəvayi-dərmandı muğamat,
Musiqi aləmiçün aliyi fərmandı muğamat.

Bülbül dil açar tar ilə kaman avazında,
Zənguləsini hər yana yayandı muğamat.

Gah bəmə enər, gah da qalxar zilə hərdən,
Cəngidə isə nəreyi meydandı muğamat.

Bu nə hikmət, bu nə qüdrət bu nə sirr onda olan,
İnsanı qətl edəcək qəsdi dayandırdı muğamat.

Cahargahda təlatüm, Rastda öyüd, şurda həsrət.
Zabulu segahında pərişandı muğamat...

Hər xalına, hər rənginə, hər pərdənə qurban,
Başdan-ayağa canlı bir dastandı muğamat.

Nə qədər vəcdə gəlib dinsə əgər Fatiməni,
Demərəm bir dəfə də yordu, usandırdı muğamat.

## Əl açmaz

Çərxi-fələk fırlansa da fənd ilə,
Ağ qaraya, qara ağa qarışmaz.
Qatıq, qaymaq qarışsa da qənd ilə,
Yağ ayrana, ayran yağa qarışmaz.

Ömür atlı, çapıb getdi, bir ilim,
Cığır saldı qara telə ağ telim,
Bağçalara bəzək vurur bülbülüm.
Qartal düzə, bayquş bağa yaraşmaz.

Bir ləkədən bütöv nəsil bulanır,
Doğru olan götürərmi yalanı?!
Haqq bilir ki, ar-məsləki olanın,
Məsləksizlə ulduzları barışmaz.

Ərənliyi başa çəkən kəsdələr,
Haqq-salamı çörək üstə kəsdilər,
Yaxşıların ürəyini kəssələr,
Yaxşılığı başa qaxıb danışmaz.

Nə fərqi var, dağda, düzdə, dərədə,
Kamil ovçu od qoyarmı barədə?!
Ağzıgöyçək çox olsa da arada.
Tullamaqla qoz divara yapışmaz!

Bəd adamlar el-obadan yaşını,
Həyat seçir nadanını, naşını,
İnsan oğlu torpağını, daşını,
Vətən, Vətən söyləməklə xar olmaz.

Ötür zaman sinə-sinə Fatimə,
Qurban vətən sinəsinə Fatimə,
Doğransa da sinə-sinə Fatimə,
Şöhrət üçün qeyrətsizə əl açmaz!

## Sən adi doğuldun

Sən adi doğuldun başqalar kimi,
Xoşlandın ananın zümzüməsindən,
Fəqət qaynar təbin, ilhamın səni,
Çıxartdı adilik çərçivəsindən.

Adi bir piano, adi barmaqlar,
Adilikdən doğan sənət nədir, nə?!
Yazdığın opera, operattalar,
Qalxdı musiqinin şah zirvəsinə.

Leylinin fəryadı, Məcnunun qəmi,
Dağ-daşı dolanıb dillərə düşdü.
Elə yandırdın ki, "Əsli-Kərəmi"
Sorağı yayılıb dillərə düşdü.

Hər kəsi qüdrətlə yaratdın ustad,
Koroğlu səsinə bənzər səs hanı?!
"Arşın mal alan"ın, Məşədi ibad",
Gülüş rəmzi kimi gəzir dünyanı.

Necə pərvazlanıb qanadlanardı?!
Qartal zirvələri fəth etməsəydi?!
Bəlkə musiqimiz şikəst qalardı,
Həyat Üzeyiri yetirməsəydi...

Sən adi doğuldun adilər kimi,
Xoşlandın ananın zümzüməsindən,
Fəqət duyan qəlbin, ilhamın səni
Çıxartdı adilik çərçivəsindən!!!

## Ulu dünyam

Ulu dünyam, namərd demə mərdinə,
Qeyrət küsər, ar inciyər, üz dönər.
Şəhidlərin sözü dedi mərdinə,
Boğazını bədənindən üzdülər.

Ulu dünyam, dürr gizlənər boxçada,
Ulusu an, bax lavaşa, bax cada,
Bağbanları yatıb qalmış bağçada,
Qönçə gülü budağından üzdülər.

Ulu dünyam, yaltaqların yamandı,
Ömrü boyu ona-buna yalmandı...
Yamaq olub ağızlara yamandı,
Sifətləri gecə kimi üzlülər.

Ulu dünyam, çəpərləndikcə illər,
Ayaq açdı çəmənliyə çəyirlər,
Kəm ağıllı, dalı dağlı çəyillər,
Yağ içində böyrək kimi üzdülər.

Ulu dünyam, kimlər seçmiş sinəni,
Ha yoğrulan, ha qovrulan sinənmi?!
Pöhrə-pöhrə göyərtməkçün sinəni,
Damar-damar ürəyini üzdülər.

Ulu dünyam, hicran əkən dərd dərər,
Sitəm çəksən sümüyünü dərd dələr,
Bir-birinə həsrət qalan dərdlilər,
Yuxularda yurd yerinə üzdülər.

Ulu dünyam, qan yaddaşın qanan az,
Qəlb qanandan qardaşın da qananmaz,
Bir qalan da, bir qayan da qanamaz,
Ayıq olsa insan adlı özüllər.

## Nə bilim

Ömür yolu gah zirvədir, gah dərə,
Kim enib, kim ucalacaq, nə bilim?
Səndən mənə bir duyumlu xatirə,
Məndən sənə nə qalacaq, nə bilim?

Sənsizliyim ağladıbdır gözümü,
Sənsizliyim bağlayıbdı sözümü.
Sənsizliyim məndən alıb dözümü,
Mənsizliyin nə olacaq, nə bilim?

Günü-günə satmaq ilə il olar,
Qum danəsi yatmaq ilə lil olar,
Həsrətindən bağrım başı pil olar,
Bəs çarəsi nə olacaq, nə bilim?

Arzular çox, ömür ötür yel kimi,
Gah burulur, gah durulur, sel kimi,
Həyat bağça-insanlarsa gül kimi,
Kim açacaq, kim salacaq, nə bilim?

Üzəvari gülümsəsəm, gülsəm də,
Neçə ağrı qövr eyləyir sinəmdə.
Səndən əsla ayrılmaram desəm də,
Ayrılığı kim salacaq, nə bilim?

## Mirzə Fətəli Axundova

Ən uca zirvəni aşmağa nə var,
Sənət zirvəsini aşasan gərək.
Şam kimi şölələr saçmağa nə var.
Günəş ziyasını saçasan gərək.

Saçında gəzmədi bir ana əli,
Həyat qaynağında od-alov oldun.
Erkən çağrılırdın kiçik Fətəli,
Böyüdün filosof Axundov oldun.

Məni məftun etmiş bir sirli iş də,
Beşiyin hardadır, məzarın harda?!
Dünyanı nura qərq edən Günəş də,
Doğur Şərq tərəfdə, batır Qürubda...

Sən şana-şöhrətə arxalanmadın,
Əziz dost sayırdın Şəfi Vazehi,
Ikidir ünvanın, ikidir adın.
Yazıçı Axundov-şair Səbuhi.

Ömürdən ötsə də il varaq-varaq,
Həyatın məhvəri dəyişməyəcək.
Neçə min Fətəli olsa da, ancaq,
İkinci Axundov yetişməyəcək.

## Günah

Bir nakam bədbəxtin, bir talesizin,
Dərdlinin dilində amandı günah.
Bir cəllad əlində yayından çıxıb,
Savaba tuşlanan kamandı günah.

İnsaf dedikləri o qibləgahım,
Yerdə pənahımdı, göydə Allahım.
Dağları, daşları yandıran ahım,
Neştərdi, yaradı, yamandı günah.

İçindən alışan, içindən yanan,
Yadı yaxın bilib yada inanan,
Haqqını istəyib haqqa dayanan,
Millətin başında tufandı günah.

Böhtan, yalan əkib, kədər, şər dərib,
Yaxşılıq üstünə amanlıq gərib,
Ah-fəryad, qəm-kədər, bəla-dərd verib,
Yerində göz yaşı umandı günah!

Məhv edər, qəhr edər ocağı, közü,
Allahım, günahdan hifz elə bizi,
Ədalət hayqıran şəhidlərimizin,
Günahsız qanına bulandı günah.

Hədəf yayınarmı sərraf gözündən?
Sədəf sıralanar sinə düzündə,
Bir gün eşidəydim bu yer üzündən,
Silindi, sovruldu, talandı günah.

## Hara gedir bu dünya

Dərd üstünə təzə dərdlər qalayıb,
Yamanını yaxşısına calayıb,
Millətimi zaman-zaman dalayıb,
Heç bilmirəm hara gedir bu dünya.

Tarazlıqda əyrisi çox, pisi çox,
Umusu şox, küsüsü çox, küsü çox,
Xəstəsi çox, tüstüsü çox, hisi çox,
Heç bilmirəm hara gedir bu dünya.

Necə baxım torpağıma, daşıma,
Zalım fələk bəla açır başıma,
Gündə bir cür ağu qatır aşıma,
Heç bilmirəm hara gedir bu dünya.

Şöhrət üçün namusunu atan var,
Hörmət üçün torpağını satan var,
Sərvət üçün nahaq qana batan var,
Heç bilmirəm hara gedir bu dünya.

Qanqal itib daşla zindan oxuyur,
Qanqal bitib gülə hədyan oxuyur,
Haqsız dinib haqqa meydan oxuyur,
Heç bilmirəm hara gedir bu dünya.

Nə varıdı kürəyinə yükləyib,
Yoxuş aşır, qaçqın qaçır, yüklənib,
Insanların günahını yükləyib,
Heç bilmirəm hara gedir bu dünya.
Hara gedir, hara gedir, bu dünya?!

## Apar məni Təbrizə

Bu həsrətin oxu haçan atıldı,
Bu hicranın yayı yaman dartıldı,
Bu buluda qara duman qatıldı,
Bu ayrılıq göz göynədə, can üzə,
Tut əlimdən apar məni Təbrizə...

Vətən vicdan, vətən anddı, amandı,
Qürbət eldə can tapşırmaq yamandı,
Sürünərəm o tayacan diz-dizə,
Tut əlimdən apar məni Təbrizə.

Orda yuxum, orda toxum, acım var,
Anam adlı, atam adlı tacım var,
Sirdaşım var, yoldaşım var, bacım var,
-Məni qoyun doğmalarla üz-üzə,
Tut əlimdən apar məni Təbrizə.

Necə dövran, necə zaman, gərdişdi,
Parçalamaq fələklərdə vərdişdi,
Bir gözəlin gözlərinə gülmüşdüm,
Necə durum o gözəllə göz-gözə,
Tut əlimdən apar məni Təbrizə.

Sitəmimiz sinəmizdən sovuşsun,
Qərib düşən doğmalarım yonuşsun,
Xudafərdə həsrətlilər qovuşsun,
Ölsün hicran, boyun qurban, gəl bizə,
Tut əlimdən apar məni Təbrizə.

## Vurğunum

İlhamıyla şah əsərlər yaratdı,
Zirvələrə pərvazlandı Vurğunum.
Salahlıda ayaq tutdu, boy atdı,
Milyon yurdda ünvanlandı Vurğunum!

Şirvan, Muğan, Mil düzündə gəzəndə,
Hünər gördü oğulunda, qızında,
Şəmşir kimi ozanların sazında,
Pərdə-pərdə havalandı Vurğunum!

Qürur məğrur, vicdan, qeyrət tər-təmiz,
Məna dərin, fikir əngin, təb dəniz,
Çörçil ilə dayananda üzbəüz,
Torpağına arxalandı Vurğunum!

Bir sədaydı yaz çağlayan selindən,
Fədaiydi Azərbaycan elindən,
Sevgi adlı qanadının telindən,
Nişanlanıb yaralandı Vurğunum.

Hər çəməndən bağça olmaz, bağ olmaz,
Dərdli könül dərman ilə sağalmaz.
Daş-qalaqdan zirvə olmaz, dağ olmaz,
Turi-Kənan, Savalandı Vurğunum!

Asimandan günəş doğub, gün düşüb,
Ana yurdum! Taleyinə gün düşüb...
Gör övladlıq qismətinə kim düşüb,
Özün boyda bir cahandı Vurğunum!

## Nizamiyə

Ey böyük Nizami, şair Nizami,
Ey şeir mülkünü nizama salan.
Sənət dünyasında mahir Nizami,
Olubmu sənin tək yazan, yaradan.

“Sirlər xəzinəsi”, sirli bir aləm,
Bəxş etdi dünyaya bütün cahanı.
Bir əlində qılınc, birində qələm,
Sən boyun əymədin saraya, xana.

Xosrov və Şirindən söz açdıqca sən,
Gözəl afaqını andın damədəm.
Fərhad Büsutundan arxı çəkəndə,
Məhəmməd gözünün durdu önündə.

Leyli və Məcnunsa tökdü göz yaşı,
Nakam eşqiləri yaslara batdı.
Qeysin səhra oldu yarı-yoldaşı,
Leylinin naləsi dağı oyatdı.

Məhəmməd yalvardı, eylədi aman,
Bəsdir bu göz yaşı, bəsdir bu nalə,
"Yeddi gözəl" yarat, atacan, aman,
Sevinsin gül-çiçək, açılsın nalə.

Hünəri Bəhrama, ağlı Fitnəyə,
Bir böyük sürünü çobana verdin.
Mərdliyi xeyirə, pisliyi şərə,
Cəzanı yolundan azana verin.

Qocalıq üz tutub yaxın gələndə,
İskəndər qılıncla çıxdı köksündən,
Elləri dolaşıb fəth eləsə də,
Ağılı öyrəndi o Nüşabədən.

## Hələ mənim nə yaşım var

Bu yolların enişindən enmişəmsə,
Yoxuşundan qalxmamışam.
Uludz-ulduz sönmədən bu dünyaya
bir doyumluq baxmamışam.
Buludların qar dağında,
şimşək olub çaxmamışam.
Köksüm üstə çırpıntılar...
Hələ mənim nə yaşım var...

Hər haqq səsim haqsızlığa,
Bir atımlıq daş olmayıb.
Şeirlərim misra-misra
ürəklərə daşınmayıb,
Hələ neçə illərim var, aylarım var,
Qəlbimdədi milyon-milyon
xoş arzular, yaşanmayıb,
Hələ mənim nə yaşım var...

Hələ indi dan sökülür sözlərimdən,
Hələ indi şəfəq gülür sözlərimdən,
Hələ indi seçilirəm izlərimdən,
Sağ əlimdi, sol köksümü sıxar, tutar,
Hələ mənim nə yaşım var...

Gah dumanam, gah tufanam, çənəm, sisəm,
Tar telindən pərdə-pərdə enən səsəm,
Ana torpaq, güman etmə ölümündən qorxan kəsəm,
Gərək olsa Fatiməni öz qoynuna çəkib apar,
Bircə dəfə söyləmərəm, "Hələ mənim nə yaşın var"

## Yaltağın

Nə ürəkdən ağlamağı,
Nə ürəkdən gülməyi var.
Nə arvad tək yaşamağı,
Nə kişi tək ölməyi var,
yaltağın.

Gündə yüz yol alçalmağı,
Söz satmağı, söz almağı,
Köpək kimi yalmanmağı,
Kələztək sürünməyi var,
yaltağın.

Əqidəsi, fikri xəstə,
Duz-çörəyi dizi üstə,
Ha buyruq ver "gözüm üstə",
Hər bir dona bürünməyi var,
yaltağın.

Çırtmasıyla addımbaşı,
Təmizləyər üstü-başı,
Nə söyləsən razılaşır,
Dirilməyi, ölməyi var,
yaltağın.

Nə qandırar, nə də qanar,
Fürsət düşsə faktı danar,
Tüpürcəyi yağış sanar,
Belə şəxsi mənliyi var,
yaltağın.

Sümsüləşər yanı-yanı,
Sözləşdirər onu bunu,
Bir gün vallah ad, ünvanı,
Silinməyi var tarixdən,
yaltağın.

## Cinaslı təcnis

Cavan olub cavanlıqda çaşılma,
Ağlı böyük yaşlılarla otur, dur,
Yaman olub yamanlara qoşulma,
Yaxşı olub yaxşılarla otur, dur.

Mən aşiqəm otur, dur,
Yurd yuvanda otur, dur.
Yolu azmış kəsləri,
Düz yerində oturtdur.

Ayırd eylə tərsi tərsə, düzü düz,
Qorxutmasın səni soyuq kösöylər,
Nahaq dəymiş bircə kəlmə, bircə söz,
Ürəyini közöv eylər, köz eylər.

Aşiqinəm söz eylər,
Söhbət düşər, söz eylər,
Yaxşı dərdin anlayar,
Yaman dərdi söz eylər.

Əqli kəmlər dürr satmağı bilməsə,
Tez tələsib dırmaşma söz təxtinə,
Ömrün-günün bir vaxt üzə gülməsə,
Nalə çəkib yaman demə bəxtinə.

Mən aşiqəm bəxtimə,
Gün dolanıb bəxtimə,
Sinəsi sözlü pəri,
Sayə salıb bəxtimə.

Namusunla, ismətinlə arınla,
Hörmət qazan, ol başların sərvəri.
Şərəfinlə, şöhrətinlə, şanınla,
Nigar çağrıl, Həcər adlan, ya Pəri.

Aşiqəm aşıq Pəri,
Dürr olub aşıq Pəri,
Gözün aydın Qarabağ,
Dirilib aşıq Pəri.

## İlləri qınamayın

Beləcə bir il də getdi ömürdən,
Bir il də atını səyritdi keçdi...
Ömrün sirr-soraqlı səhifəsindən
Həyat bir ili də beləcə biçdi.
Bir il də atını səyritdi keçdi.

Kiminə var-dövlət, kimə şan-şöhrət,
Kiməsə bir böyük vəzifə verdi.
Kim isə işiylə qazandı hörmət,
Kiminsə zəhməti hədər də getdi.

Hardasa bir dərdli, kədərli ana,
Gileydən köksündə qübar eylədi.
Hardasa bir körpə gəldi cahana,
Həyat nemətindən nübar eylədi.

Ürək dövr eylədi, ürək od aldı,
Büruzə verməyi dillərdə gördük,
Əyrilik edənlər insanlar oldu,
Təqsiri aylarda, illərdə gördük.

Nə vaxtsa bir başçı yolunu azdı,
Həyatın işidir, belə anladıq.
İnsanın qənimi insanlar oldu,
Bizsə tarix boyu ili danladıq.

Narahat gəzirəm düzü nədənsə,
Axı insan olmuş, insan pənahı,
Yaxşı, deyin görüm əgər beləysə,
Bəs 41-45-in nəyimiş günahı.

O illər özü də yeni, təzəydi,
Tarixə qara bir xətt çəkəcəkmiş,
Neçə min insanın qəddini əydi,
Belə təzə illər nəyə gərəkmiş.

## Ağlatdılar

*(Təcnis)*

Duyan könlüm susma Allah eşqinə,
Dərdimizi bir-birinə qatdılar.
İnsan oğlu dəmirdimi, daşdımı,
Dözümlükdə neçə-neçə qatı var.

Əslin, soyun ha dansan da yad olmaz,
Sözlü evdə üzün gülüb, şad olmaz.
İnsafsızda aman olmaz, dad olmaz,
Bir də gördün köksünü qanatdılar.

Bu dünyanın dərdi çoxmuş sən demə,
Namərdi az, mərdi çoxmuş sən demə.
Fələklərin fəndi çoxmuş sən demə,
Gah güldürüb, gah da qan ağlatdılar.

Bağladalar fikrin boyat qəlpini,
Gah ağladar, qəlb üsyanı, qəlb ünü.
Uşaq təki sadəlövhün qəlbini,
Oynadaraq sonra qana qatdılar.

Ulusunda neçə qız var, oğul var,
Qız yaraşıq, oğul arxa, oğul var.
Qansızlara qan udduran oğullar,
Yurdlarını necə qanqallatdılar.

Məhəbbətlə bağlanıbdı göy yerə,
Solan ümid bir də haçan göyərə.
İnsanları ucaltmaqçün göylərə,
Ağılla, baxt qoşaca qanaddılar.

## O günlər unudulmur

Kim deyir ki, ötən günlər unudulub,
Kim deyir ki, 41,45 insan üçün doğma olub, əziz olub,
Bircə anlıq müharibə illərini salaq yada,
Oğul, uşaq, qoca, cavan,
Xalqı üçün canı yanan getdi bada.
Anaların göz yaşları sinəsinə axmadımı,
Qız-gəlinlər əzizləri gedən yola intizarla baxmadımı?!
Tarix boyu yaşamaqçün özlərini od içinə atanlar da,
Çətin gündə, dar ayaqda, ya yaxında, ya uzaqda,
Dosta kömək çatanlar da,
Bir ağız çörəkdən ötrü məsləkini satanlar da.
Ömrü boyu ölü can tək yaşayanlar
Bir gün belə, Almaniyada, Amerikada,
                    yarasa tək yaşınanlar,
O günlərin canlı cansız şahididir.
Müharibə yer üzünə od ələdi, qan çilədi.
Müharibə dağ gövdəli, tunc biləkli, xoş diləkli,

Saya gəlməz qəhrəmanı küt elədi, şil elədi.
Fəqət yenə dayanmadı atışmadan,
Susammadı vətən oğlu.
Koroğlu tək hay-harayı dünyamızı gəzdi bütün.
Xalq yolunda vətən üçün !!!
Bu şüarla azad etdi şanlı vətən torpağını.
Köksü üstə cancdı bir gün al qırımızı bayrağını!

## Bəxtəvərlik

Həsəd-həsəd baxdın ona,
Yanındakı al geyimli qadına...
Pıçıldadın: "Təpə dırnaq, simüzərdi.
Zalım qızı nə qədər də bəxtəvərdi".
"Bəxtəvərdi",- Söylədin sən,
Mal-dövləti, naz-neməti,
Başlarından aşana,
"Bəxtəvərdi",- Söylədin sən,
Əyriyola qədəm qoyub,
Düz yolunu çaşana...
Bəsdir, yetər, əldən salma,
Dilinin məcazını,
Hər yetənə qismət etmə,
Bəxtəvərlik tacını,
Bəxtəvərlik!- Xalq içində üz ağlığı,
Bəxtəvərlik!-Ən sadəsi can sağlığı,
Bəxtəvərlik!-El yükünü ürəyində daşımaqdır!
Bəxtəvərlik!-Ən alisi bu dünyada azad-azad yaşamaqdır!

## Daşıyacağam

Gümanım qalıbdır ağ kağızlara,
Dərin rəğbət hara, dəyanət hara?!
Ömür karvanını hey yara-yara,
Beləcə qayğılı yaşayacağam.
Səni ürəyimdə daşıyacağam.

İtirə bilmərəm səni gözümdə,
Ömür yaşadıram özüm-özümdə,
Enişli-yoxuşlu bu yer üzündə,
Nə qədər diriyəm, nə qədər sağam,
Səni ürəyimdə daşıyacağam.

Əbədi həyatdır! Əmanət insan!
Daim irəliyə baş alır zaman.
Gözü giryan tökən şam kimi hər an,
Elə gizli-gizli alışacağam
Səni ürəyimdə daşıyacağam.

## Söz axtara qalmışam

Qəlbim odu çözələndi, çözəndi,
Alışmağa göz axtara qalmışam.
Hicran, həsrət ürəyimi üzəndi,
Danışmağa, söz axtara qalmışam.

Qayalıqlar yaralayıb dizimi,
Dərəliklər tükəndirib dözümü,
Nə müddətdir itirmişəm izimi,
Yaşamağa düz axtara qalmışam.

Gözüm yaşı leysanlayım, selləyim,
Pünhan dərdi indi kimə söyləyim?
Mənzil uzaq, qəlbim yaxın, neyləyim?
Qovuşmağa göz axtara qalmışam.

## Sənli günün harayında

Göz yaşlarım gözlərimin bulağı,
Tənha qəlbim-tənha payız yarpağı.
Xatırlayıb o bağçanı, o bağı,
Güzarımı göy çəməndə salmışam.
Sənli günün harayında qalmışam.

Sızlar könlüm bir yaralı quşdumu?!
Ömrüm-günüm göz qırpımda uçdumu?!
Sənsizliyim indi mənə tuşdumu?!
Lal yuxumu gecədən bac almışam,
Sənli günün harayında qalmışam.

Günəş gördüm yerə necə yaraşır,
Gülü dərdim tikan ilə yanaşı,
Taleyimiz ayrı düşüb, yan aşıb,
Ürəyimə həsrət yolu salmışam,
Sənli günün harayında qalmışam.

## Aman ovçu vurma məni

Bu nə səda, bu nə səsdi,
Səbrimi büsbütün kəsdi.
Ovçu odlu, cüyür süsdü,
Naləsi gəzir meşəni
Aman ovçu vurma məni.

Ahım dələr, dağı, daşı,
Selə dönər gözüm yaşı.
Nişan alıb addım başı,
Pərələmə sən sinəmi,
Aman ovçu vurma məni.

Hava açıq, səma təmiz,
Bulud ötür səs-səmirsiz.
Mən taqətsiz, sən rəhmsiz,
Daş eyləyib ürəyimi,
Aman ovçu vurma məni.

Sən günə bax, günəşə bax,
Yaşa deyir, ulu torpaq,
Tufan kimi çalxanaraq,
Borana qatma aləmi,
Aman ovçu vurma məni,
Aman ovçu vurma məni.

## "Yanıq Kərəm" ağla mənim dərdimə...

Bu qayanın daşı haçan dil açar,
Bu gözlərn nuru yolda, dil naçar,
Bu ürəyin köksü bağlı dil açar,
"Yanıq Kərəm" ağla mənim dərdimə.

Bu od nə od, qəza necə qəzaydı?
Nankorların gözdəniraq azaydı,
Şaxta vurub, Cıdır düzü quzeydi,
"Yanıq Kərəm" ağla mənim dərdimə.

Qara Keşiş dil boğaza dirədi,
Gözəl Əslim, göz yaşımı dər indi,
Bu yaramın yarası çox dərindi,
"Yanıq Kərəm" ağla mənim dərdimə.

## Sənsiz

Bir çaxım şimşəyəm, çaxmaram sənsiz,
Bir axımlıq seləm, axmaram sənsiz
Çiçəyə bürünsə hər tərəf belə,
Boylanıb dünyaya baxmaram sənsiz.

Səmada ulduzlar sayrışan olsa,
Uçub bir-birinə qarışan olsa,
Dörd yanı od tutub alışan olsa,
Çiskin yağış olub yağmaram sənsiz.

Qorxuyla yaşasa qocaman həyat,
Arzu qatarlarım açarmı qanad?!
Zülmətə bürünsə bütün kainat,
Bir qövsi ayım tək doğmaram sənsiz.

Yanğını yarıya böl desələr də,
Nisgili qəlbindən sil desələr də,
Murad, Mülayimə gül desələr də,
Həsrətli-həsrətli ağlaram sənsiz.
Arazım, Kürüm tək çağlaram sənsiz.

## Xatirələrdir

Beləcə əmr etdim həyatda belə,
Ömür dənizində dalğaya döndüm.
Ümid, inamlarım düşəndə selə,
Gah tufan qopardım, gah da ki, söndüm,
Ömür dənizində dalğaya döndüm.

Min dəfə and içib, aman eylədim,
Məni o anladı, o başa düşdü.
Çətindir yaşamaq sənsiz söylədim,
Yanımdan qayığlı, mənalı keçdi.
Məni o anladı, o başa düşdü.

Ümid insan üçün ən böyük varlıq,
Mənim ümidlərim xatirələrdir.
Ümidsiz nə bəxtlik, nə bəxtiyarlıq
Sormayın qəlbini yaşadan nədir,
Mənim ümidlərim xatirələrdir,
Mənim ümidlərim xatirələrdir...

## Qoru məhəbbətimi

Mən səni qəlbimdə yaşadır ikən,
Sən mənim eşqimi yellərə vemə.
Mən səni göylərə ucaldır ikən,
Sevgimi tapdayıb yerlərə vermə.

Kəsmə nakəslərlə duz-çörəyini,
Açma hər yetənə öz ürəyini,
Bir bahar qoxulu yaz çiçəyini,
Payızda açılmış güllərə vermə.

Hissin hökm eləsə ağlına bir an,
Eşqimi yanında bil arxa, həyan,
Yaxşını saxlayıb, yamanı yayan,
Bir para naxələf dillərə vermə.

Etməsin yolundan hər afət səni,
Axı unudarmı sevən-sevəni?!
Hərarətlə dolu bir dəqiqəni,
Ayazlı, şaxtalı günlərə vermə.

Sına zaman-zaman dəyanətimi,
Sonu görülməyən sədaqətimi,
Damla-damla yağan məhəbbətimi,
Qayalar uçuran sellərə vermə.

## Sırasında

Bir baxışam, gözüm qalıb
Tellərim qarasında.
Bir ürəyəm, sözüm qalıb,
Ömrümün yarısında.

Bir günəm, gündüz istərəm,
Bir ayam, ulduz istərəm,
Bir qönçəyəm, yaz istərəm,
Fəsillər arasında.

Söhbət ola, saz ola,
Kədər, qüssə az ola,
İşvə, qəmzə, naz olar,
Göllərin sonasında.

Muradı sirdaş görəydim,
Məclislərdə baş görəydim,
El qızını kaş görəydim,
Yaxşıların sırasında.

## Etibar

Etibar... İnsanın bir əmanəti,
Etibar-həyatın məhəg daşıdır.
Etibar qoruyar namus qeyrəti,
Etibar dostluğun yoxlanışıdır.

Məhəbbət, sədaqət, dəyanət ki, var,
Qəlbimin bəzəyi, arzu, kamımdır.
Həyatda bir vəfa, bir də etibar,
Mənim insanlığa ehtiramımdır.

Qəlbimdə sözünü, inamlarımı,
Verməyin şübhənin qanadlarına.
Dostluqda bir günlük etibarımı,
Vallah dəyişmərəm dünya varına.

**İnanma mənə, inanma**

Ürəyimdə de dürmüsən?
Açılmayan bir sirmisən?
Desəm yuxuma girmirsən
İnanma mənə, inanma.

Demə əhli divanəyəm,
Demə hissiz zənanəyəm,
Desəm sənə biganəyəm,
İnanma mənə, inanma.

Ömür gəlib gedəridir,
Məndəki bu istək nədir?
Desəm duyğum ötəridir,
İnanma mənə, inanma!

## Könül

Ömür köhlənində, ömür atında,
Biganə-biganə dolanma könül.
Kür kimi kükrəmək vaxtı çatanda,
Araz tək lal axıb bulanma könül.

Bəzən sellər kimi çağlamağı da,
Yamanın dilini bağlamağı da,
Bacar gülməyi də, ağlamağı da,
Yalnız susmaq üçün yaranma, könül.

Vəfalı kəs əməlindən bilinər,
Qəlbi xəbis min sifətə bürünər,
Gah cəfakeş, gah vəfalı görünər,
Nankora, nadana inanma, könül.

El qızıyam, ürəyimi yazan mən,
Yarı bulud, yarı günəş, yazam mən.
İstəyirəm hey yaradam, yazam mən,
Vədəsiz yorulub dayanma, könül!

## Kaş məni tanıyasan

Bir şaşqınlı yel kimi,
Yaz çağlayan sel kimi,
Səs-səmirsiz göl kimi,
Ürəyimi duyasan.
Kaş məni tanıyasan.

Gülümə, çiçəyimə
Arzuma, diləyimə.
İstərdim ürəyimə
Pünhan-pünhan dolasan.
Kaş məni tanıyasan.

Lalə-reyhan düzündə,
Çeşmə-bulaq gözündə,
Əzizim, yer üzündə,
Qəlbincə yaşayasan.
Kaş məni tanıyasan.

## Asan-çətin

Mənim ürəyimi bilməyə nə var,
Sənin ürəyini bilmək çətindir.
Sevincdən ərmağan ummağa nə var,
Kədəri yarıya bölmək çətindir.

Şad gündə şadlanıb gülməyə nə var,
Ağlaya-ağlaya gülmək çətindir.
Gözünün yaşını silməyə nə var,
Sevgini qəlbindən silmək çətindir.

Alçalıb-alçalıb ölməyə nə var,
Namusla, qeyrətlə ölmək çətindir.

## İstərəm

Bu dünyada şərəfsiz can,
Nə şöhrət, nə şan istərəm.
Milyonlardan əziz olan
Təmiz ad, ünvan istərəm.

Altunlara sürünməyim,
Mal-dövlətli görünməyim,
Zər-zibayə bürünməyim,
Təkcə sağlam can istərəm.

Ərənlərdə dağ vüqarı,
Gəlinlərdə ismət, arı,
İnsanlarda etibarı,
Qeyrət və vicdan istərəm.

## İkilik

İki dəfə ağladım,
Kəsmədi gözüm yaşı.
Mənaları müxtəlif,
Biri xəzan yağışı,
Biri bahar naxışı.

Bir baxış həsrətində,
Can ayrılar bədəndən.
Düşünürəm ki, nədən,
İki dəfə ürəyim,
Kamana dönüb mənim.
Bir ayrılıq naləsi,
Biri vüsal nəğməsi.

Barsız bağça bar salmaz,
Qaynayan göl boşalmaz,
Həyatda ikilikdə.
Qaçıb qurtarmaq olmaz.
Biri kəskin kin-nifrət,
Biri sonsuz məhəbbət.

Könlüm ilhama gəlir,
Mənə yarat, yaz deyir.
Duyuram iki hikmət
İnsana qanad verir.
Biri ümid inamlıq,
Biri həqiqət varlıq.

## Soyuqluq

Əllər soyuq olsa bir çarəsi var,
Gözlər soyuq olsa, ürək neyləyər?
Bir soyuq nəzərdən, soyuq baxışdan,
Ən odlu bir ürək soyuyar gedər.

Bir odlu, alovlu, atəşin gözdən,
Ürəyə bir isti, hərarət düşər.
Bir soyuq söhbətdən, bir soyuq sözdən,
Nəinki bir ürək, bədən ürpəşər.

Gözləri, sözləri qoyaq bir yana,
Ürək soyuq olsa onda neyləyək?
Həmişə hərarət verən insana
"Ürəyin soyuqdur" kaş ki, deməyək.

Bu qaynar ürəyim mənə deyir ki,
Bu sonsuz həyatda ən çətin işə,
Ən ağır əzaba tab gətirirəm.
Bir soyuq gözlərin kəskinliyinə,
Bir soyuq sözlərin əzginliyinə,
Bir də soyuq qəlbin təskinliyinə
Heç zaman, heç zaman dözə bilmərəm.

## Ulu Tanrım, mənə bir az səbr ver

Haqqın evi qalaylanıb, daşlanıb,
Bu yolların səmti hardan başlanıb?
Zalım bizi qanımıza qurşanıb,
Ulu Tanrım, mənə bir az səbr ver...

Bu fəryadı göylər necə götürdü,
Bu fərmanlar qan selləri gətirdi.
Bu faciə qərənfillər bitirdi
Ulu Tanrım, mənə bir az səbr ver...

Nə qovğadır ürəyimi dağlayan,
Qollarımı çalın-çarpaz bağlayan,
Bu xalqımdır için-için ağlayan,
Ulu Tanrım, mənə bir az səbr ver.

## Nə mənası

Söhbətimi sevmirsənsə,
Söz deməyin nə mənası?
Bir yerdə ki, məşəl yoxdur,
Köz deməyin nə mənası?

Ürək ki, yana, alışa,
Tab gətirməz yaşayışa.
Cavan vurar ömrü başa,
Döz deməyin nə mənası?

Sən ürəkdən yanmırsansa,
Sevdiyini anmırsansa,
İşarədən qanmırsansa,
Yüz deməyin nə mənası?

Nuruyla baxmaz cahana,
Sifətləri səsdən qanar.
Boş çuxurdur yeri, ona,
Göz deməyin nə mənası.

Şeir sənət yolundayıq,
Ömrüm keçər, ayrılmarıq.
Gəl bu yolu birdəfəlik,
Üz deməyin nə mənası?

## Ağlayım

Aşıq qardaş "Divani"-dən çal bir az,
Divan görmüş ərənlərə ağlayım.
Bir havayı söhbət üstə söz üstə,
Döşü güllə dərənlərə ağlayım.

Göy üzünü qara duman, çən aldı,
Zaval dəydi yaşıl yarpaq saraldı,
Bir möhürlə neçə ocaq qaraldı,
Ulduzları sönənlərə ağlayım.

Qaranlığın ürəyimi yararaq,
Dönmüş tale, dəhşət gecə, yar oyaq,
Tellərini yarı qara, yarı ağ,
İlmələyib hörənlərə ağlayım.

Heç bilmirəm, səma nədir, göy nədir?
Böhtan oldu, iliklərim göynədi,
Şəhidlərin torpaqları göyərdi,
Şəhidlərə dönənlərə ağlayım.

Mərd adamlar yaradanlar talandı,
Ürəklərdə həsrət odu qalandı,
İgid oğul ölə bilməz!Yalandı!
Yaşayaraq ölənlərə ağlayım.

## Qoy olsun

Dedim dünya möcüzədir,
Gülüm, qoy olsun, qoy olsun.
Harda gördün haqla nahaq
Qoşa qapana qoyulsun?

Göydə bir əlçim buludluq,
Mövcud ikən "yox"- da olduq!
Zaman-zaman unudulduq,
Yazan yaddaşın sovrulsun.

Dayaq olduq dar günlərdə,
Şahid durur göydə, yerdə,
Qəbirlərə qıyan yerdə,
Qansız qolların qurusun.

Naşı könül, nə azarsan,
Dərdi qəmdənmi bezarsan?
Yamanlığa uzanarsan,
Yollarım, yolçun yorulsun.

Unutdunmu ili, ayı,
İtirdinmi haqqı, sayı?
Vətənimdən "vətən" payı?
Tamahkar, nəfsin soyulsun.

Tələ qurub, ev yıxanın,
Xatası var lal axanın,
Qarabağa gəc baxanın,
Gözü nurundan oyulsun.

## İllər

Təzə ayaq açmış uşaqlar kimi,
Şıltaqlıq eyləyib, çəkilir illər.
Şaxta ayaz vurmuş yarpaqlar kimi,
İnsanın ömründən tökülür illər.

Üst-üstə yığılmış daş qalaq kimi,
Ömür binasından sökülür illər.
Hər sətri oxunmuş bir varaq kimi,
Qatlanır, örtülür, bükülür illər.

## Ata-analar

Deyirəm həyatdır ata-analar,
Övlada qanaddır ata-analar.
Övladı yaxşı da, əla da olsa,
Yenə narahatdır ata-analar.
Evə yaraşıqdır ata-analar.
Övladı yolunda nəğmələr deyən,
Sazlı bir aşıqdır ata-analar.
Deyirəm ülvidir ata-analar.
Həyatın qəlbidir ata-analar.
Övlada verilən bu yer üzündə,
Nadir bir incidir ata-analar.

## Qəlbimizi incitməyək

Yaşayaq dünyada biz gülə-gülə,
Bir sözlə ürəyə dərdi verməyək.
Hansı vəziyyətdə olsaq da belə,
Heç kəsdən xoş sözü əsirgəməyək.

Qoy hər an sevinsin vuran ürəklər,
Qəm kədər nə demək bilməsin heç vaxt.
Onlara mükafat olsun çiçəklər,
Olmasın kobud söz, olmasın ancaq.

Gəlin pis sözləri, kobud sözləri,
Ataq bir kənara heç işlətməyək.
Həssas ürəkləri, nurlu gözləri,
Kobud sözlər ilə biz incitməyək.

## Gərək

Dostluğa and içib, peyman edənin,
Qəlbində etibar, sədaqət gərək.
Nə pula aldansın, nə şirin dilə
Gözünü tutmasın var-dövlət gərək.

Xaradan, zibadan libas biçməsin,
Dostuna vicdandan and da içməsin,
Görüçün canından belə keçməsin,
Qəlbində bir kiçik məhəbbət gərək.

Kədər qədəm qoyub, dərd çoxalanda,
Hər an, hər dəqiqə olsun yanında,
Yaxşı yaman gündə dostun yolunda,
Dost çəksin azacıq əziyyət gərək.

Qəlbin sənin ilə birgə döyünsün,
Yalnız etibarı qiymətli bilsin,
Dost odur tikəni yarıya bölsün,
Etməsin çörəyə xəyanət gərək.

Əsl dost dost üçün arxa, dağ olar,
Bütün ömrü boyu üzü ağ olar,
Etibarlı dostun sözü sağ olar,
Çəkməyə heç zaman xəcalət gərək.
Belə dosta verək biz qiymət gərək.

## Yalan danışmışam

Yalan danışmışam,yalan demişəm,
Ən doğma, ən yaxın bir yoldaşımçün.
Ac olan zamanda toxam demişəm,
Aclığımı ona bildirməməkçün.

Bəzi vaxt bədənim ağrıyır bütün,
Anama yaxşıyam sağam demişəm.
Onun ürəyini pis etməməkçün,
Yalan danışmışam, yalan demişəm.

Şair tək qələm al, yaz ilham ilə,
Şeirdən, sənətdən sən də bir söz aç.
Yalan gətirsən də bəzən dilinə,
Həmişə düzlüyün qapısını aç.

## Aldatmayaq bir-birimizi

Ömür yolu kələ-kötür,
Vərəq kimi bir-bir ötür.
Əziz sayaq günümüzü,
Aldatmayaq bir-birimizi.

Hər söhbəti söz etməyək,
Xırdalığa biz getməyək.
Sındırmayaq könlümüzü,
Aldatmayaq bir-birimizi.

Necə varıq, o da olaq,
Üzəvari danışmayaq,
Dəyişməyək qəlbimizi,
Aldatmayaq bir-birimizi.

Qaya kimi ötkəm olaq,
Polad kimi möhkəm olaq,
Seçə bilək əyri-düzü,
Aldatmayaq bir-birimizi.

Ürəkləri talanlara,
Söz satıb, söz “alan”-lara,
Bildirməyək dərdimizi,
Aldatmayaq bir-birimizi.

Ömür keçir inam ilə,
Şübhə ilə, güman ilə,
Bir kiçicik nöqsan ilə,
Dəyişsək də çöhrəmizi,
Aldatmayaq qəlbimizi!
Dəyişməyək qəlbimizi!

## Nə bilim

Gah qayğılı, qayğısız ömrümüzdən,
Çoxu gedib, az qalanmı, nə bilim?
Hərarətin ürəyinin gözündə,
Çoxalanmı, azalanmı, nə bilim?

Açılmamış, bilinməmiş fikirsən,
Mənsizlikdə göz yaşını tökürsən,
Deyirsən ki, həsrətimi çəkirsən,
Bu doğrumu, ya yalanmı, nə bilim?

Payız günü duman düşər, çən düşər,
Saçlarıma qar ələnər, dən düşər,
Cavanlığım daha məndən gen düşər,
Ötən anım, qayıdarmı nə bilim?

Yaxşı kəslər çətinlikdə darılmaz,
Yamanlarda vicdan olmaz, ar olmaz,
Sevən kəslər illər keçsə ayrılmaz,
Yalanmı, ya həqiqətmi, nə bilim...

## Cavanlığım

Rahatlıqdan gen gəzərək,
Coşdu, daşdı cavanlığım.
Dəniz kimi kükrəyərək,
Sahil aşdı cavanlığım.

Əsrarəngizümman ilə,
Gah yaxşıyla, yaman ilə,
Bəzən çətin, asan ilə,
Qarşılaşdı cavanlığım.

Min şövq ilə gəldi dilə,
Keçdi ömrüm ümid ilə,
Aydan-aya,  ildən-ilə,
Başqalaşdı cavanlığım.

Ömür yaşı ötürəndə,
Gözlərim tor gətirəndə,
Əl də əsa götürəndə,
Uzaqlaşdı cavanlığım.

Min dəfə naz eləsəm də,
Qışımı yaz eləsəm də,
Yaşımı az eləsəm də,
Məndən qaçdı cavanlığım.
Vidalaşdı cavanlığım.

## Ürək

Hər kəsənin yumruğu tək,
Yaranmısan sən ay ürək,
Ancaq çox şey gizlədərək,
Bir ümmantəksən, ay ürək.

Bəzən pünhan, bəzən gizli,
Ağlamısan, yanmısan sən.
Dilsiz, sözsüz o gözləri,
Söhbətsiz də qanmısan sən.

Hər bir insan qəfəsində,
Sənin yerin pünhan, nihan.
Deyin, onda niyə olub,
Ürəklərin biri doğru, biri yalan?

Biri sudan olub təmiz,
Biri çirkab içindədir.
Biri nurlu, aydın gündüz,
Biri zülmət, səbəb nədir?

Biri yaxşı, biri yaman,
Biri düzgün, biri xəbis.
Biri daim başqasına quyu qazan,
Biri isə ad sanıyla
Tarixlərə salıbdır iz!
Ürək... ürək...
Sən insanın, insanlığın açarısan,
Ona görə yamanlığı qıfıllayıb,
Yaxşılığın qapısını açmalısan.

## Ürək sözləri

Bir ata evindən pərvazlanaraq,
Bir ata evinə qədəm basırsız.
Bir ana qoynundan uzaqlaşaraq,
Bir ana qoynuna sığınırsınız.

Atanı, ananı siz rəğbət ilə,
Daim düşünəsiz, yada salasız.
Şirindil xoş ülfət, məhəbbət ilə,
Hörmət qazanmağı bacarasınız.

Silinsin ürəkdən dərdi-qəminiz,
Qəlbiniz sevinclə, fərəhlə dolsun.
Ən kobud, ən ağır, ən pis cümləniz,
“Əzizim, bu saat, baş üstə!” olsun.

Poladdan möhkəmlik, qızıldan qiymət,
Büllurdan saflığı kaş alasınız.
Qəlbinizdə vəfa, bir də sədaqət,
Qoşa qarıyasız, qocalasınız.

## Təəssüf

Mənə ümid verən, təsəlli verən,
Bir insan qəlbiyçün yazar, yazardım.
Sonsuz üfüqlərə baş alıb gedən,
Eşqimlə zamanı bəyazdırardım.
Yaşını yaşıma mən yazdırardım,
Əlimdə imkanım olsaydı əgər,
Ötən anları da saxlatdırardım,
Ömrümdən ömrünə calatdırardım.
Təəssüf... təəssüf...
Bunları eyləyə bilməyəcəyik.
Zamanın hökmündən dönməyəcəyik.
Dinməyəcəyik.
Təəssüf, Təəssüf...

## Necə çətinmiş

Həyatda qatil tək enər, alçalar,
Bir ovçu qanunsuz ov ovlayanda.
Fəqət dahilər tək göyə ucalar,
İnsan hisslərini cilovlayanda.

Arzular yuvası olan hissimi,
Boğaraq ağlımı, ucaltmalıyam.
Payız günlərində bir şəbnəm kimi,
Özümü vədəsiz qocaltmalıyam.

Mənasız bir ümid, mənasız guman,
Özünə hökm etmək nə müşkül imiş.
Qəlbinə hopdurmaq asandan-asan,
Ürəkdən çıxartmaq necə çətinmiş!
Necə çətinmiş!

## Bəzi adamlar

Bu dünyada xəbis qəlbli adamlar,
Xəzri külək kimi hey əsib gedər.
Yamanı söyləsən dinləyib durar,
Yaxşını danışsan tələsib gedər.

Bir söz bilsə min bir yerdə danışar,
Üzəvari alovlanar, alışar,
Hər kəlməsi yarı böhtan, yarı şər,
Gah “asıb”, gah “basıb”, gah kəsib gedər.

Əyri baxar küsülülər barışsa,
Yanıb yaxar həsrət, vüsal qovuşsa.
Biri əgər ədalətdən danışsa,
Ona dodaq büzər, göz süzüb gedər.

## Gözündə olar

Hər şeyi həyatda qazanmaq olar,
Mərifət insanın özündə olar.
Cahillik cavanın coşğun çağında,
Aqillik qocanın sözündə olar.

Möhkəmlik qartalın caynaqlarında,
Zəriflik lalənin yarpaqlarında,
Xınalıq kəkliyin dırnaqlarında,
Gözəllik ceyranın gözündə olar.

Yorğunluq yolların yoxuşlarında,
Durğunluq gözlərin yağışlarında,
Soyuqluq insanın baxışlarında,
İstilik ürəyin gözündə olar.

Bir sevgi yaşatdım əlçatmaz, dərin,
Həsrətli, ümidli, ümidi şirin,
Mülayim, köç etsən sənin "mənliyin"
Həyatda qoyduğun izində olar.

## Nə deyim

Mən nə deyim tərs yazılan bəxtimə,
Üzü dönük ömrümə, qismətimə,
Leysan yağır şəkil kimi şəstimə,
Aman Allah! Bu nə ağır sitəmmiş,
Yaxşı yanan ocağıma qar enmiş,
İraq düşüb yolum hardan salmışam.
Muradıma nə əlçatmaz qalmışam?

## Əlvida

Kam almadım həyatımdan doyunca,
Həsrət çəkdim uzun illər boyunca,
Əcəl gəlib cavan canım alınca,
Dedim sinə dağlılarım, əlvida!
Doğmalardan doğmalarım, əlvida!

Əziz bacım sınıq-sınıq süzəndə,
Göz yaşını yanağına düzəndə.
Qərib canım qan içində üzəndə
Dedim bu iş müşkül işdi, əlvida!
Görüşümüz son görüşdü, əlvida!

Nə yamanmış, sağalmazmış bu yara,
Bu yaranın dərdi hara apara?
Balalarım yoxdu şivən qopara,
Dərd-sərimi qananlarım, əlvida!
Təpə-dırnaq yananlarım, əlvida!

Ağır tora ilişmişəm, düşmüşəm,
İndən belə sizdən hardan görüşəm?
Köçdü, köçdüm, elə bəxti taykeşəm.
Ay soruşub, məni anan, əlvida!
Əziz anam, əziz atam, əlvida!

Arzumuzu əlimizdən alan var,
Qəlbimizi talıyan var, çalan var,
Axır bizi yaman ayrı çalan var,
Vəfadarım, ay Muradım, əlvida!
Sədaqətim, əhdim, andım, əlvida!

Göz önümə gəldi qara dumanlar,
Dil tutulub, ürək sözüm kim anlar?
Axır günü başım üstə duranlar,
Əziziniz əldən gedir, əlvida!
Taleyinə vida edir, əlvida!

Söyləyin ki, şümşad boylu can gedir,
Yaxşıların yaxşısı cavan gedir,
Üzündə nur, dilində "haycan" gedir,
Ağı deyən dillilərim, əlvida!
Yaxın, uzaq ellilərim, əlvida!
Əlvida, əlvida!

## Aparmayın Milanı

Bu sevdanın yamanladı yarası,
Bu sevdanın şirin oldu harası?
Sellətməkdən getdi gözün qarası,
Axtararam gəzib dağı, aranı,
Aman Tanrım, aparmayın Milanı.

Tale mənim kül üfürdü gözümə,
İndən belə nə söyləyim özümə,
Yalqızlığın ocağı nə, közü nə,
Yaz yatırmaz sinəmdəki boranı,
Aman tanrım, aparmayın Milanı.

Bu necə də çəkilməyən yük oldu,
Özüm kiçik, dərdim nə böyük oldu....
Əllərimdən uçdu bir mələk oldu,
Gülərüzlüm, olum gözün qurbanı,
Aman tanrım, aparmayın Milanı...

Zalım fələk toy günümü etdi yas,
Demədim ki, taleyimi belə yaz,
Murad ola, Milan ola, bir də yaz,
Qoşalaşıb sürəydilər dövranı,
Aman tanrım, aparmayın Milanı...

## Epiloq

Sonsuzluğa baş alıb gedən məhəbbətimin şahənşah sahibi!
Əzizim, munisim, sədaqətim, vəfa adlı obrazının baş qəhrəmanı, ilahi tərənnümçüsü!
Qoy sənin yazılarının toplusu səndən sonra istəklin,
Bütün sevgilərdən uca, bütün sevgilərdən pak, təmiz,
Bütün sevgilərdən real, ülvi məhəbbət yaşadan,
Muraddan sənə-mənim Milama əbədi xatirə olsun!

Sənin sorağınla, sənin həsrətinlə göynəyən,
Yoxluğunu bilə-bilə yollarını gözləyən,
Nə qədər, yaşasam o qədər yanan,
Nə qədər yaşlansam içimdə sevdan olan Muradın.

## İzdi-iz

Dost-tanışı çox sınağa çəkmişəm,
Mərdin yolu elə düzdü, düzdü-düz!
Mətləbsizin bir məsləki bilinməz,
Müdriklərin sözü-sözdü, sözdü-söz!

Yaz ayları axar sular lal imiş,
Həsrətlinin ayı-günü il imiş,
Yalan qozu ha yandırsan kül imiş,
Sal palıdın gözü-gözdü, gözdü-göz!

Zaman keçər təkər kimi hərlənər,
Zəhmət çəkən torpaq üstə tərlənər,
Çərxi fələk fırfıra tək fırlanar,
Bir deyil ki, fəndi yüzdü, yüzdü-yüz!...

İşarədə sərraf sözün anla sən,
Yaxşıları yaxına çək, yanla sən,
Dilbilməzi gündə yüz yol danlasan,
Keçə kimi üzü üzdü, üzdü-üz!

Kaman içrə yaya dönüb gərilsən,
Çəmənliyə çayır olub hörülsən...
Yüz bulaqda güzgülənib görünsən,
Çeşmələrin gözü gözdü, gözdü-göz!

O nədir ki, bitən anı bilinməz,
O nədir ki, qulaqlardan silinməz,
O nədir ki, ilki-sonu görünməz,
Dağı-dağdı, daşı-daşdı, düzü-düz.

O həyatdı-bitən anı bilinməz,
O fəryaddı-qulaqlardan silinməz,
Kainatdı ilki-sonu görünməz,
Dağı-dağdı, daşı-daşdı, düzü-düz.

Gileylənmə zaman belə, vaxt belə,
Dövlət belə, sərvət belə, taxt belə,
Tale belə, qismət belə, baxt belə,
Heçi-heçdi, geci-gecdi, tezi-tez...

O nədir ki, yaxın qoyar, yad qoyar,
O nədir ki, hər ağızda dad qoyar,
O kimdir ki, tarixlərdə ad qoyar,
Min il keçə izi-izdi, izi-iz!!!

O gümandı yaxın qoyar, yad qoyar,
O dövrandı hər ağızda dad qoyar,
O insandır tarixlərə ad qoyar,
Min il keçə izi izdi, izdi-iz!

**"Ya Qarabağ, ya ölüm!**
**Özgə çarə yox artıq"**
*Türk şairi Arif ozanın şerinə ithaf*

Neçə ildir qan sorur torpağımız, daşımız,
Neçə ildir çaşıbdı fikrimiz, yaddaşımız,
Neçə ildir şəhiddir bacımız, qardaşımız,
Neçə ildir köçkünük, didərginik, qaçqınıq,
"Ya Qarabağ, ya ölüm özgə çarə yox artıq"!

Qan çanağı, çəlləyi qan selləri doyurmaz,
Baş kəsən cəlladları ah-nalələr soyutmaz,
Qarğa-quzğun qonmaqla qırçın qaya olunmaz,
Təpərimiz tükənsə şəhidləri haylarıq,
"Ya Qarabağ, ya ölüm, özgə çarə yox artıq"!

Şuşa yaylaqlarında xarı bülbül bitməmiş,
Kəlbəcərdə Şəmşirin sazı dil-dil ötməmiş,
Laçın, Ağdam, Zəngilan, Qubadlıya yetməmiş,
Bu qisası, qiyamı qiyamətə qoymarıq,
"Ya Qarabağ, ya ölüm, özgə çarə yox artıq"!

Necə baxım körpələrin gözdən axan selinə,
Qurban olum anaların ağı deyən dilinə,
Dua eylə, Allahım, Azərbaycan elinə,
Duan ilə Tuğ nədir, Ağkilsəyə çatarıq.
"Ya Qarabağ, ya ölüm, özgə çarə yox artıq"!

Haydı, ərən igidlər, haydı qana-qan deyin,
Yağılara, yadlara qalmaz bu meydan deyin,
Bir ovuc torpağımız şirindir candan deyil,
Deyin ki, ölməmişik, söyləyin ki, biz varıq.
"Ya Qarabağ, ya ölüm, özgə çarə yox artıq"!

Tükənməyib xalqımın dəyanəti, qeyrəti,
Dağ üstünə dağ qoyar dağlar qədər qüdrəti,
Vulkan kimi püskürüb, silkələnib millətim,
Şəhid kimi ölərik, qazi kimi yaşarıq.
"Ya Qarabağ, ya ölüm, özgə çarə yox artıq"!

## Qəzəl

*(Matəm mitinqindən yaranıb)*

Tanrım tanıyır taleyimi tən təməlindən,
Əğyar utanıb xar olacaq öz əməlindən.

Dərdlər nə qədər atəş olub ərşə ucalsa,
Yerlər o qədər qan soracaq bəndələrindən.

Fələyin hər dağına dərman ilə çarə varıymış,
Allah qorusun fitnəkarın feli-şərindən.

Yüzlərlə mənim can-ciyərim qətlə yetirdi,
Əli qan, əhdi yalan cəllad əlindən.

Nərəylə gələn sellələməni bənd tuta bilməz,
Ellər yığılsa dağ oynadar vallah yerindən.

Bir gün desələr xəstə düşüb öldü şairə,
Vəhdət, yenə vəhdət göyərər kəlmələrindən.

## Mündəricat

Haqdan asılan misralar ................................3
Ürəyim ..........................................................8
Umma ..........................................................10
Əyilmə, əyil ..................................................12
Ömür yollarında ...........................................14
Neyləsin ......................................................15
Sənə işi düşəndə ..........................................16
Bərbadlaşmasın ............................................18
Beşlik ..........................................................19
Eşq olsun əbədi yaşayanlara .......................20
Ulu tanrım, mənə bir az səbr ver ...............22
Sözündə olar ................................................23
İttihamlar kürsüsündə ................................24
Kişilər ağlayanda .........................................26
Ağırlıq ..........................................................28
Şuşa ............................................................30
Toxunma ......................................................31
Hüzuruna gəlmişəm .....................................32
Yaxşıdır .......................................................34
Üzdəniraqlara ..............................................35
Şair, nə az yaşadın sən... ............................36
Qəzəl ...........................................................37
Əl açmaz .......................................................38
Sən adi doğuldun ..........................................40
Ulu dünyam ..................................................42

Nə bilim ........................................ 44
Mirzə Fətəli Axundova ........................................ 45
Günah ........................................ 46
Hara gedir bu dünya ........................................ 48
Apar məni Təbrizə ........................................ 50
Vurğunum ........................................ 52
Nizamiyə ........................................ 54
Hələ mənim nə yaşım var ........................................ 56
Yaltağın ........................................ 58
Cinaslı təcnis ........................................ 60
İlləri qınamayın ........................................ 62
Ağlatdılar ........................................ 64
O günlər unudulmur ........................................ 66
Bəxtəvərlik ........................................ 68
Daşıyacağam ........................................ 69
Söz axtara qalmışam ........................................ 70
Sənli günün harayında ........................................ 71
Aman ovçu vurma məni ........................................ 72
"Yanıq Kərəm" ağla mənim dərdimə ........................................ 73
Sənsiz ........................................ 74
Xatirələrdir ........................................ 75
Qoru məhəbbətimi ........................................ 76
Sırasında ........................................ 77
Etibar ........................................ 78
İnanma mənə, inanma ........................................ 79
Könül ........................................ 80
Kaş məni tanıyasan ........................................ 81
Asan-çətin ........................................ 82

İstərəm ........................................................ 83
İkilik ........................................................ 84
Soyuqluq........................................................ 86
Ulu Tanrım, mənə bir az səbr ver ............. 87
Nə mənası........................................................ 88
Ağlayım ........................................................ 89
Qoy olsun ........................................................ 90
İllər ........................................................ 92
Ata-analar........................................................ 92
Qəlbimizi incitməyək ................................ 93
Gərək ........................................................ 94
Yalan danışmışam ...................................... 95
Aldatmayaq bir-birimizi ............................ 96
Nə bilim ........................................................ 98
Cavanlığım ................................................ 99
Ürək........................................................ 100
Ürək sözləri ................................................ 102
Təəssüf ........................................................ 103
Necə çətinmiş................................................ 104
Bəzi adamlar ................................................ 105
Gözündə olar ................................................ 106
Nə deyim ........................................................ 107
Əlvida ........................................................ 108
Aparmayın Milanı.......................................... 110
Epiloq........................................................ 111
İzdi-iz ........................................................ 112
"Ya Qarabağ, ya ölüm!
Özgə çarə yox artıq" .................................... 114
Qəzəl ........................................................ 116

**FATMA İSRAFİLOVA**

*"Sənin sorağınla"*

İMZA

NƏŞRLƏR EVİ

**Direktor:** **Səbuhi Aslan**

**Dizayner:** **Veys Əliyev**

**Texniki redaktor:** **Hüseyn Məmmədov**

Çapa imzalanmışdır: 10.04.2023
Ofset çapı. Əla növ kağız
Tiraj: 100
Ünvan: Bakı, Mətbuat prospekti
529-cu məhəllə
Telefon: (012) 538-18-87, (050) 263-16-16
email: imza_nesrler_evi@mail.ru